# Afrika ölkələri ilə əməkdaşlığın inkişaf dinamikası yüksəlir



**"Tarixi zəfərimizin ardınca ərazi bütövlüyünü və suverenliyini tam bərpa edən Azərbaycanın xarici siyasət uğurlarının miqyası daha da genişlənir. Azərbaycan hər zaman əməkdaşlıq çağırışları ilə dünyanın diqqətindədir".**

Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Vüqar Rəhimzadə deyib. Deputat bildirib ki, yerləşdiyi coğrafi məkan ölkələr, xalqlar arasında körpü rolunun daha da möhkəmləndirilməsində stimulverici amildir. Azərbaycanın etibarlı tərəfdaş kimi tanınması və mövqeyini möhkəmləndirməsi ölkəmizin münasibətlərdə qarşılıqlı etimada böyük önəm verdiyini, bunu sözdə deyil, əməldə sübut etdiyini təsdiqləyir. "Prezident İlham Əliyevin liderliyi ilə həyata keçirilən uğurlu və çoxşaxəli xarici siyasət kursunda Afrika ölkələri ilə həm ikitərəfli, həm də çoxtərəfli əsasda əlaqələr qurmaq mühüm istiqamətlərdən birini təşkil edir. Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi dövrü Afrika qitəsi ölkələri ilə münasibətlərdə yeni mərhələnin əsasını qoydu. Ötən ilin noyabrında Bakının uğurla evsahibliyi etdiyi COP29-da ali səviyyədə təmsil olunan Afrika ölkələrinin dövlət başçıları ilə keçirilmiş görüşlər, qarşılıqlı səfərlərin həyata keçirilməsi Azərbaycanın Afrika siyasətinin inkişaf perspektivlərini, potensial istiqamətlərini xeyli artırıb. Azərbaycanın Afrika ölkələri ilə əlaqələrinin inkişaf dinamikasına nəzər salanda aydın görürük ki, bu dövlətlərlə müxtəlif sahələr üzrə əməkdaşlıq imkanları mövcud potensialdan daha genişdir", - deyə o əlavə edib.

Deputat qeyd edib ki, ölkəmizin qlobal və regional miqyasda artan nüfuzu, iqtisadi potensialı və gücü, eləcə də Prezident İlham Əliyevin nüfuzlu lider kimi yürütdüyü uğurlu siyasət Afrika ölkələrinin Azərbaycanla əməkdaşlığa marağını getdikcə daha çox artırır. Bir sıra Afrika ölkələrinin dövlət başçıları Azərbaycana səfər etmək, ikitərəfli münasibətləri daha da gücləndirmək niyyətlərini ifadə edib, ölkəmizi qitəyə investisiya qoymağa çağırıblar. Dövlət başçısı İlham Əliyevin müdrik siyasəti nəticəsində Afrika qitəsi ölkələri ilə münasibətlərin daha da inkişaf etdirilməsi, müxtəlif sahələrdə əməkdaşlığın genişləndirilməsi prosesi davam edir, bu əlaqələrdə ölkəmizin milli mənafeyinə uyğun yeni hədəflər müəyyənləşdirilir. Bu amilləri nəzərə alaraq deyə bilərik ki, qitə ölkələri ilə bütün sahələrdə əməkdaşlığın davam etdirilməsi tərəflər üçün faydalıdır.

V.Rəhimzadə bildirib ki, Somali Federativ Respublikasının Prezidenti Hasan Şeyx Mahmudun, Qvineya-Bisau Respublikasının Prezidenti Umaru Sisoku Embalonun Bakıya səfəri, keçirilən görüşlər, aparılan səmərəli müzakirələr, əməkdaşlığın müxtəlif sahələrdə inkişafına geniş imkanlar açan sənədlərin imzalanması bunun bariz nümunəsidir. Azərbaycanın enerji, infrastruktur, təhlükəsizlik və təhsil sahələrində liderliyi yüksək qiymətləndirilir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 1 mart (№ 46).- S.6.